# Azərbaycan Respublikasının «Hərbi xidmətlərə görə» medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

Azərbaycan Respublikasının «Hərbi xidmətlərə görə» medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 6 dekabr 1993-cü il***

***№ 759***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 dekabr 1993-cü il, № 245) («VneshExpertService»).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (1993-cü il, № 23-24, maddə 682) («VneshExpertService»).***

***6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli; 30 mart 2004-cü il tarixli, 612-IIQD nömrəli; 30 sentyabr 2013-cü il tarixli, 728-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklərlə («VneshExpertService»).***

*Azərbaycan Respublikasının*
*1993-cü il 6 dekabr tarixli,*
*759 nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir.*

# «Hərbi xidmətlərə görə» medalı haqqında Əsasnamə

1. Azərbaycan Respublikasının «Hərbi xidmətlərə görə» medalı Azərbaycan Respublikasının hərbi qulluqçularına aşağıdakılara görə verilir:

- öz xidmət vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə;
- dövlət sərhədlərinin qorunmasında xidmətlərinə görə.

2. «Hərbi xidmətlərə görə» medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda «Tərəqqi» medalından sonra taxılır.

*Azərbaycan Respublikasının*
*1998-ci il 6 fevral tarixli,*
*429-IQD nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir.*

# *«Hərbi xidmətlərə görə» medalının təsviri*

*«Hərbi xidmətlərə görə» medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş, dairəvi ornamentli və mərkəzdən paylanan şüaları olan diametri 36 mm qalxanabənzər girdə lövhədən ibarətdir.*

*Qalxanın ortasında səkkizguşəli ulduz və ulduzun arxasında iki çarpaz qılınc təsvir olunmuşdur.*

*Arxa tərəfi hamar səthlidir, ortasında «Hərbi xidmətlərə görə» sözləri yazılmışdır, ondan aşağıda medalın seriyası və nömrəsi həkk olunmuşdur.*

*Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilmişdir. Açıq qəhvəyi rəngli xara lentin sağ və sol kənarlarında 1 mm enində açıq boz rəngli zolaq vardır. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü gümüşü rəngli təbəqə bərkidilmişdir.*

*Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.*



**“Azərbaycan Respublikasının “Hərbi xidmətlərə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 759 nömrəli Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

“Azərbaycan Respublikasının “Hərbi xidmətlərə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 759 nömrəli Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 682; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 141; 2004, № 5, maddə 312) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qanunla təsdiq edilmiş “Hərbi xidmətlərə görə” medalının təsviri”ndə:

1.1. birinci hissədə “35 mm” sözləri “36 mm” sözləri ilə, “girdə” sözü “dairəvi gümüşü” sözləri ilə əvəz edilsin;

1.2. üçüncü hissədə “nömrəsi” sözündən əvvəl “seriyası və” sözləri əlavə edilsin;

1.3. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

“Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilmişdir. Açıq qəhvəyi rəngli xara lentin sağ və sol kənarlarında 1 mm enində açıq boz rəngli zolaq vardır. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü gümüşü rəngli təbəqə bərkidilmişdir.”;

1.4. beşinci hissədə “üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm” sözləri “eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm” sözləri ilə əvəz edilsin.

2. Həmin Qanuna əlavə edilmiş “Hərbi xidmətlərə görə” medalının eskizi bu Qanuna əlavə olunmuş yeni eskizi ilə əvəz edilsin.




**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2013-cü il.**